# İRƏVAN TEATRI TÜRKİYƏ TAMAŞAÇILARININ KÖNLÜNÜ FƏTH ETDİ



C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı 3-24 aprel 2016-cı il tarixlərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Türkiyə Cümhuriyyəti Anadolu Aydınlar Ocağı Başqanı, Prof.Dr. İbrahim Öztəkin dəvəti ilə Türkiyə Cümhuriyyətinin İqdır, Kars, Ərzurum, İnegöl, Bursa, Manisa, İzmir, Kuşadası, Sakarya, Kocaeli, İstanbul, Suluova, Samsun, Gerasun şəhərlərində genişmiqyaslı qastrol həyata keçirdi.

"Türkiyə-Azərbaycan kültür və sənətdə "DEV" qardaşlıq və candaşlıq projesi" adı ilə reallaşan, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət!" Beynəlxalq təbliğat və təşviqat kampaniyası çərçivəsində gerçəkləşdirilən bu möhtəşəm layihəyə eyni zamanda 24 Nisan qondarma erməni soyqırımı yalanlarının ifşa olunması məqsədi də əlavə edilmişdi. Layihənin cövhərində türklərə qarşı qərəzli mövqedə dayanan qara qüvvələrə, böyük türk siyasi xadimləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin öndərlik məfkurələrini bütün həqiqətləri ilə anladaraq, dünya siyasət arenasında əvəzi olmayan belə parlaq şəxsiyyətlər yetişdirmiş xalq qarşısında türkün və türkçülüyün əleyhinə mübarizə aparan bədxahlarımıza öz yerlərini göstərmək niyyəti dururdu.

Torpaqlarımızın düşmən işğalından azad olunması istiqamətində milli ordumuzun mübarizəyə qalxdığı ərəfədə, İrəvan teatrının kollektivi erməni vəhşətini bütün həqiqətilə göstərən "Xocalıya ədalət - uydurma erməni soyqırımına lənət!.." devizi ilə öz sənətsal mübarizəsinə daha bir imza atdı. Bu məqsədlə İrəvan Teatrının kollektivi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri cənab Əbülfəs Qarayevin uğurlaması və nazirliyin dəstəyi ilə türk yazarları Demet Çizmeli və Barış Pınar Çelebioğlunun "Cümhuriyyətin ilk sədası", İftixarın "Nurlu ömrün anları" və "Soyqırımı tarixinin dastanı" tamaşalarını türkiyəli tamaşaçılara təqdim etmək üçün sənət turnesinə çıxdı.

Teatr İqdır və Karsdan sonra Ərzurum Böyükşəhər Bələdiyyəsi Necib Fazil Kültür Mərkəzi salonunda "Cümhuriyyətin ilk sədası" tamaşasını teatrsevərlərə təqdim etdi. Türk sənət mütəxəssisləri teatrın əsərdə baş verən hadisələrə həssaslıqla yanaşdıqlarını, Atatürk (Natiq Həziyev) və Kazım Qarabəkir Paşa obrazlarının (Əhliman Ərşadlı) mükəmməl ifalarını böyük coşqu ilə alqışladılar.

Tarixi sənədlərə istinadən yazılan "Cümhuriyyətin ilk sədası" pyesi və tamaşası doğrudan da böyük Türk Cümhuriyyətinin yaranış epopeyasıdır. Fikrimizin həqiqətini Ərzurumda Mustafa Kamal Atatürkün o dövrdə yaşadığı evinin ziyarəti bir daha təsdiq etdi. Türkiyə Cümhuriyyətinin yaradıcısı böyük öndər Mustafa Kamal Atatürkün, onun silahdaşı Kazım Qarabəkir Paşanın, Osmanlı dövlətinin nəhəng sərkərdəsi olan Nuru Paşanın bədii obrazları Azərbaycan teatr tarixində ilk dəfə İrəvan Teatrının səhnəsində canlandırılmışdır.

Tolerantlıq nümunəsi olan teatrımız daha maraqlı, daha cazibəli digər bir işi ilə hər kəsi heyran qoydu. İzmirə yolçuluğumuzda truppaya Kiyevdən gəlmiş musiqişünas-menecer Olqa İvanovna Kononenko da qatıldı. İzmirin Gediz Universitetinin Kültür salonunda "Cümhuriyyətin ilk sədası" pyesini oynadığımız zaman Olqa xanımın ifasında Şopenin prelyudasından fraqment daxil edildi. Bu gözlənilməzlik tamaşanı daha ecazkar nura bürüdü.

Kollektivimiz səfər boyu "Cümhuriyyətin ilk sədası" tamaşasını Türkiyənin on müxtəlif səhnəsində oynayaraq Türkiyə-Azərbaycan dostluğuna, həmrəyliyinə yeni görəvi və mübarizə amacı kimi təqdim etdi.

Gediz Universitetinin Y.Mimar Yavuz Selim Barbaros gösteri mərkəzində "Soyqırımı tarixinin dastanı" tamaşasını təqdim etdik. Öyrəncilər arasında Xocalı qurbanlarına qoşulmaq, özlərini onların yanında hiss etməyə can atan, - biz də o faciəni sizinlə birgə səhnədə yaşamaq istəyirik - deyən Aydın Erben isimli bir tələbə əsər müəllifinin izni ilə tamaşada yer aldı. Mərasimlərdə Salman Bayramovun yüksək aktyor peşəkarlığı ilə ifa etdiyi "Türk bayrağı" şeiri səfərin son gününə kimi hər məclisdə səsləndi.

Tamaşaçı salonu isə əllərində müqəddəs bayrağımızı havada şövqlə yelləyən "Yaşasın ulu türk!", "Var ol, Azərbaycan!" şüarları səsləndirən tələbələrin sevincinə qərq olmuşdu.

İrəvan Azərbaycan Teatrının vizit kartı adlandırdığımız "Soyqırımı tarixinin dastanı" tamaşası Kocaeli səhnəsində öz yerini "Cümhuriyyətin ilk sədası" tamaşasına verdi və Kocaeli valiliyinin Sapançı Kültür mərkəzində eyni hərarətlə qarşılandı. İzmit Böyükşəhər Bələdiyyəsi Kültür və turizm müdirliyi Kocaeli Aydınlar Ocağının başqanı Ruhittin Sönməz, Azərbaycan Evi Derneyi üzvlərinin iştirak etdikləri bu gecə də böyük zəfərlə başa çatdı və qarşılıqlı ödüllər təqdimi olundu.

Türkün türkdən başqa dostu yoxdur! - həqiqəti Kocaeli Böyükşəhər Bələdiyyəsi Azərbaycan Heydər Əliyev Kültür Evində bir daha təsdiqini tapdı. Burada bizi Türk-Azərbaycan Kültür və Dostluq dərnəkləri Federasyonu başqanı Bilal Dündar qarşıladı. Ulu öndərin həyat və fəaliyyətinin, azərbaycançılıq məfkurəsinin, Xocalı faciəsi həqiqətlərinin əks olunduğu eksponatlarla tanışlıqdan sonra İftixar Piriyev Ulu öndərə həsr etdiyi kitabları muzeyə hədiyyə etdi. Evin qarşısında ucaldılmış Heydər Əliyevin büstü qarşısında aktyorlarımızın təqdimatında "Nurlu ömrün anları" kompoziyası ilə anım keçirdik.

17 apreldə İstanbulda Anadolu Aydınlar Ocağı Başqanı İbrahim Öztək heyətimizi sonsuz sevgilərlə qarşıladı. Axşam Kartal Belediyyesi Hasan Ali Kültür salonunda İbrahim bəyin projenin mahiyyəti, məqsədi barədə çıxışından sonra "Cümhuriyyətin ilk sədası" oyununu sərgilədik. İstiqlal marşları səsləndi. Mərasimə qatılanlar arasında Kartal Aydınlar Ocağı başqanı Necmi Kurt, Bələdiyyə başqanı Altınol Özel və türkün ənnesi adlandırılan Kazım Qara Bekirin sonbeşik qızı Timsal Karabəkir xanım da vardı. Tamaşa bitən anda Timsal xanım səhnəyə qalxarkən İftixar onun qarşısında diz çöküb kövrəldi: sevgili anne, Allah səni qorusun-söylədi. Ən həyəcanlı an isə aktyor Əhliman Ərşadlının ifa etdiyi Qarabəkirin sonbeşik qızı ilə görüşündə yaşandı: göz yaşları içərisində ata-qız bir-birinə sarıldılar. Timsal xanım bütün alqışları bağrına basdı; Mustafa Kamalın söylədiyi - "Cihan yıxılsa da, türk yıxılmaz!" ifadəsi salonda hər kəsin ağzından ucalırdı. Biz də öndərlərin yaratmış olduqları istiqlal fəlsəfəsini öyrənərək yaşatmalıyıq. Osmanlı çökən zaman Atatürk ayağa qalxıb Anadolunu türkün düşmənlərindən qorudu, Cümhuriyyət qurdu, Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas edərək müstəqillik yoluna çıxardı. Dövlətimizi möhkəmləndirdi. Biz - mədəniyyət xadimləri də oynadığımız tamaşalarla müasir gənc nəslə bunları göstərməliyik.

İstanbul səfərimizin ikinci günü hər iki öndərin büstləri qoyulmuş Heydər Parkını ziyarət etdik. Azərbaycanın İstanbuldakı baş konsulluğunun konsulu Kənan Murtuzov, Anadolu Aydınlar Ocağının Başqanı İbrahim Öztəklə bərabər bu parkda aktyorlarımızın "Nurlu ömrün anları" pyesindən hazırladıqları kompozisiya ilə anıtım mərasimi keçirdik.

Amasiya Universiteti Konqre və kültür salonunda oynanılan "Cümhuriyyətin ilk sədası" tamaşaçında isə rektor Metin Obay, Kartal Aydınlar Ocağının başqanı Necmi Kurtun iştirak etdiyi tədbirin sonunda qarşılıqlı ödüllər təqdimi baş tutdu. Məlumat verildi ki, Amasiyada İrəvan Teatrının adına ağac əkilmişdir. Rektor teatrın kollektivinə, şəxsən İftixar Piriyevə səmimi təşəkkürlərini bidirdi. Tamaşaçılar Azərbaycan və Türkiyə bayraqları ilə iştirakçıları şövqə gərirərək, böyük coşqu və alqış sədaları altında "Ya Qarabağ, ya ölüm!","Şəhidlər ölməz - vətən bölünməz!", "Xocalıya ədalət", "Qarabağda işğal bitəcək, türk yurduna dönəcək!" plakatları ilə səhnəyə yürüş etdilər, haqq işimizə həmrəy olduqlarını bildirdilər.

Türk hər zaman ayaqda durmağı bacarmalıdır - Samsun Bələdiyyəsi Atakun Kültür salonunda Aydınlar Ocağı başqanı Taner Tunc çıxışına bu sözlərlə başladı. 100 illərin erməni yalanlarının ifşasına yönəlmiş bu projenin məram və məqsədindən, mahiyyətindən, Xocalı soyqırımından danışdı.

Türk heç zaman basılmaz, sarsılmaz, bölünməz! - deməklə İrəvan teatrı dünya birliyi qarşısında soyqırımı hadisələrini belə aydınlatdı, həm varlığı ilə, həm də yaratdığı vətənpərvər ruhlu nəhəng tamaşalarla, torpaqlarını zəbt etmiş və onu isti yurd-yuvasından didərgin salmış düşmənə qarşı qəhrəmancasına mübarizə mövqeyində dayandığını bir daha təsdiqlədi, yüz ilin erməni yalanlarına qarşı türklərlə eyni mövqedə olduğunu öz sənət qüdrəti ilə isbatladı.

Tamaşalarımızı oynadığımız bütün şəhərlərdə teatrımızın kollektivi mötəbər fəxri fərmanlarla təltif olunurdu. Seyrçilərin isti münasibəti, mehribançılıqla qarşılanma, salondakı heyrətamiz coşqu bizim üçün ən ali mükafatlardan belə üstün idi. Keçdiyimiz hər bir şəhərdə, tamaşa oynadığımız bütün salonlarda şair-dramaturq İftixarın ifa etdiyi "Türkiyə-Azərbaycan" şeri isə missiyamıza xüsusi rövnəq verir və insanları sevgi haləsinə bürüyürdü.

Qastrol səfəri başa çatdıqdan sonra, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, İrəvan Teatrının dəvəti və təşkilatçılığı ilə aprel ayının 25-də Bakıda Türkiyə Aydınlar Ocaqlarının 20 nəfərlik heyətinin təmsil olunduğu zirvə toplantısı kecirildi. Mədəniyyət və Turizm Nazirliyində nazir müavini Ədalət Vəliyev Anadolu Aydınlar Ocağının rəhbəri İbrahim Öztəkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Sonra Atatürk Kültür Mərkəzində İbrahim Öztək bəyin "Atatürkün böyük kişiliyi" kitabının təqdimat mərasimi oldu. Axşam isə Mahnı teatrında projenin bağlanış mərasimi böyük təntənə ilə keçirildi və İrəvan Dövlət Azərbaycan Dram Teatrının qastrol boyu nümayiş etdirdiyi "Cümhuriyyətin ilk sədası", "Soyqırımı tarixinin dastanı", "Nurlu ömrün anları" tamaşaları "Qalx ayağa, Azərbaycan!" və "Sən türksən, sən türksən, sən böyüksən!" hayqırtısı ilə türkün əzəməti simvolunda salonu ayağa qaldırdı.

Bu proye təkcə qastrol səfəri deyil, həm də siyasi, ideoloji, diplomatik əhəmiyyətli mədəniyyət görəvi, böyük türk birliyinin həmrəylik və birlik, bir bayraq altında birləşməyə çağırış rəmzi kimi tarixə yazıldı.

**NƏRMİNƏ AĞAYEVA**
**İrəvan Dövlət Azərbaycan Dram Teatrının ədəbi hissə müdiri**

